*Metafizika jurnalı* *p-ISSN 2616-6879*
*2021, cild 4, say 2, sıra 14* *e-ISSN 2617-751X*

**UOT 1 (091).**
**KBT 87.3**

***Bəhruz GÜLMALIYEV*** *
*(Azərbaycan)*

*Naxçıvan Dövlət Universiteti*

# İbn Sina yaradıcılığının elmi-fəlsəfi aspektləri

***Xülasə***

İbn Sinanın əsərlərinin bəziləri bir mövzuya aid edilsə də, bir çox əsərləri ensiklopedik xarakter daşıyır. Çünki onun əsərlərində fəlsəfə, məntiq, tibb, psixologiya və elmin digər sahələri öz əksini tapmışdır.

İbn Sinanın ideya sistematikliyi orta əsrlər fəlsəfəsinin klassik xarakterini özündə ehtiva edir. Empirist-Rasyonalist mövqeyindən irrasionalizmə yüksələn bu sistem məşşailikdən işraqiliyə yönəlmişdir.

İbn Sina məntiqin alət elmi, qayəsinin isə insanı xətalardan qoruyan işarələrdən ibarət olduğunu bildirmişdir. Filosofa görə insan ağlı nöqsanlı olduğuna görə məntiq qanunlarına möhtacdır. O hesab edir ki, məntiq eyni zamanda düşünmə sənətidir.

Filosof əxlaq məsələləri ilə yaxından maraqlanmış, demək olar bütün əsərlərində əxlaq məsələlərinə yer ayırmışdır. O, bu mövzuda metafizik düşüncələrlə İslamın əsaslarını uzlaşdırmış və əxlaq nəzəriyyəsini bu prinsipdən çıxış edərək təhlil etmişdir. Allah ilk cövhər və vacib varlıqdır, hər şeydə olduğu kimi “yaxşlıq” və “pislik” ondandır, lakin Allah lütf sahibi olduğu üçün “pislik” insanın başına Ondan deyil əşyadan gəlir. Filosof

* *Naxçıvan Dövlət Universitetinin dissertantı.*
e-mail: gulmaliyev.behruz@gmail.com
https://orcid.org/0000-0002-4166-8870

düşünür ki, insanın başqasına əxlaq tərbiyəsi verə bilməsi üçün, ilk öncə özünün əxlaqlı olması lazımdır. Buna görə şəxs ilk öncə öz ayıb və qüsurlarını görməli yaxşını pisdən ayırmalıdır.

İbn Sinaya görə nəfs cism ilə ağıl arasında qərarlaşmışdır. Filosof varlıqları vacib və mümkün kəlmələri ilə ifadə etmişdir. Filosofa görə mümkün varlıq doğan və ölən şeylərin varlığı olduğu halda, vacib varlıq varlığını başqasından deyil, özündən alan varlıqdır. Beləliklə, cismlərin varlığı mümkün, Allahın varlığı vacibdir.

***Açar sözlər****: Fəlsəfə, Elm, Varlıq, Məntiq, Əxlaq, Tərbiyə, Tibb*

## *Giriş*

Əbu Əli Hüseyn ibn Abdulla ibn Sina 980-ci ildə Buxara yaxınlığında yerləşən Əfşənə ərazisində anadan olmuşdur [Ünver 1955: 2] Kiçik yaşlarından başlayaraq dil və din elmlərini öyrənən İbn Sina, gənc yaşlarından əsərlər yazmağa başlamış, daha sonrakı dövrlərdə isə tibb və fəlsəfə elmləri ilə məşğul olmuşdur.

İlk dövrlərdə Aristotelin metafizikaya aid düşüncələrinin qarışıq olduğu qənaətinə gələrək təbiətə aid araşdırmalara başlayan filosof daha sonra, Fərabinin əl-İbanə adlı əsərini oxuduqdan sonra Aristotelin fəlsəfəsini daha yaxından öyrənməyə səy göstərmişdir. Səmani hökümdarının saray kitabxanası İbn Sinaya verildikdən sonra oxuduğu Fərabinin əl-Talimus-Sani əsəri onun fəlsəfi görüşünü daha da genişləndirmişdir. İbn Sina həmçinin Fərabidən sonra məşşai fəlsəfə məktəbinin ən böyük nümayəndəsidir. Onu da qeyd edək ki, dövlət idarəsində vəzirlik məqamına kimi yüksələn filosof ömrünün sonlarını səyahətdə keçirmiş, 1037-ci ildə Həmadanda vəfat etmişdir.

İbn Sinanın əsərlərinin bəziləri bir mövzuya aid edilsə də, digər mühüm əsərləri ensiklopedik xarakter daşıyır. Onun ən böyük əsərlərindən biri "Şəfa" əsəridir. Filosofun bu əsəri məntiqdən başlayaraq, dövrünün bütün təbiət problemlərinə qədər, həmçinin metafizikaya dair məlumatları özündə əks etdirir. Başqa təbirlə desək bu əsər XI əsrdə İslam elmlərinin ensiklopediyası statusundadır. Filosofun digər bir əsəri isə "İşarə" əsəridir ki, bu əsər Filosofun əsas ideya sistematikliyini əhatə etmək baxımından ən mükəmməl və tam əsərlərdən biri hesab olunur. İslam aləmində əş-Şeyxur-Rəis ləqəbi alan İbn Sina həmçinin onu orta əsrlərdə Hipokratdan sonra ən böyük həkim olaraq tanıdan "*Kitabul-Qanun fit-Tibb*" əsərinin müəllifidir.

Bu əsər orta əsrlər Şərqinin tibb sahəsində başlıca əsərlərindən biri idi. Daha sonra latın dilinə tərcümə edilən əsər Qərbi Avropada İslam tibb məktəbinin başda gələn əsəri olaraq əsrlərlə öz əhəmiyyətini qorumuş, XVII əsrin ortalarına qədər Avropa universitetlərində dərs vəsaiti kitabı kimi istifadə edilmişdir.

**İbn Sinanın fəlsəfi düşüncəsi**

İbn Sinanın ideya sistematikliyi orta əsrlər fəlsəfəsinin klassik xarakterini özündə ehtiva edir. Empirist-Rasyonalist mövqeyindən irrasionalizmə yüksələn bu sismet məşşailikdən işraqiliyə yönəlmişdir.

Aristotel və Farabidən ilham alan filosof, elmləri maddi və şəkil baxımından üç yerə ayıraraq aşağıdakı kimi təsnif etmişdir:

1. Təbiət elmləri və ya aşağı elmlər (ilmul-Əsfəl).
2. Metafizik, məntiq və ya yüksək elmlər (ilmul-Ali).
3. Maddəsindən ancaq zenhində ayrılan elmlər (ilmul-Əvsat) [Taylan 2006: 203].

Fəlsəfə tarixində “varlıq dəlili”ni açıq bir şəkildə ilk dəfə İbn Sina işlətmişdir. O düşüncə ilə varlıq arasındakı əlaqədən yola çıxaraq bu anlayışı düşüncədə varlıq, dildə varlıq, xarici dünyada varlıq və yazıda varlıq şəklində dörd qrupda dəyərləndirmişdir [Kaya 2013: 140]. Filosofa görə varlıq və düşüncə bir-birinin eynisidir, biz var olan şeyləri düşünə bilərik, düşündüklərimiz vardır, düşüncənin xaricində varlıq ola bilməz. Görüldüyü kimi, filosof burada məntiq ilə metafizikanı birləşdirmişdir.

Orta dövrlərdə filosoflar və məntiq mütəfəkkirləri arasında, məntiqin sənət, yoxsa elm olması barəsində münaqişə getməsinə baxmayaraq, İbn Sina məntiqin bir alət elmi, qayəsinin isə insanı xətalardan qoruyan işarələrədən ibarət olduğunu bildirmişdir. O, təkcə məntiq barədə deyil, elmin bütün sahələrindən bəhs edərkən onları məntiqin tələb etdiyi qayda-qnunlara əsasən izah etməyə çalışmışdır [Paşayeva 2015: 100]. Filosofa görə insan ağlı nöqsanlı olduğuna görə, məntiq qanunlarına möhtacdır. O hesab edir ki, məntiq eyni zamanda düşünmə sənətidir. Bu xüsusiyyətinə görə riyaziyyata bənzəyir, mövzusunu isə tamamilə zehni olan varlıqlar təşkil edir. Başqa bir ifadə ilə məntiq müəyyən düşüncə formalarının elmidir.

Platondan etibarən fəlsəfədə mübahisəyə səbəb olan küll nəzəriyyəsi İbn Sinanın da təfəkküründən kənar qalmamışdır. İbn Sinaya görə üç cür küll vardır:

1. Metafizikaya aid olan. Yəni, mütləq varlığın (Allahın) düşündüyü ideyalar. Bunun mənasi belədir: Əşyadan əvvəl, o əşyanın ideyası vardır,

onlar isə mütləq varlığa xas olan anlayışlardır. Yən insan ideyası ilk dəfə mütləq varlıq tərəfindən düşünülmüş, sonra tək-tək insanlar yaradılmışdır.

2. Hər bir varlığın aid olduğu cins baxımından müxtəlif xüsusiyyətləri ilə bərabər, bir də yaradılışa uyğun olan ortaq xüsusiyyətləri vardır. Məsələn: hər bir insanın fərdi özəlliklərindən başqa, bir də ümumi olan "insan" olma özəlliyi vardır.

3. Küll mücərrəd anlayış olaraq mövcuddur. Mücərrəd anlayışları isə biz özümüz təşkil edirik. Məsələn, gördüyümüz tək-tək insanlardan küll bir "insan" anlayışı formalaşır.

İbn Sina psixologiyaya aid nəzəriyyələrində fizika ilə metafizikanı bir-biri ilə əlaqələndirmişdir. Folosofa görə ruh maddəyə qədər, düşünən nəfs (ruh) isə fəal ağıl vasitəsilə Allaha qədər yüksələ bilər Filosofun psixologiyaya aid düşüncələrini üç hissəyə ayırmaq olar:

1. Nəfs və ağlın nəzəriyyəsini özündə ehtiva edən təcrübi psixologiya.
2. Ağılın mahiyyətindən bəhs edən rasional psixologiya.
3. Təsəvvüf psixologiyası.

İbn Sinaya görə nəfs cism ilə ağıl arasında qərarlaşmışdır. Filosof varlıqları vacib və mümkün kəlmələri ilə ifadə edir. Mümkün varlıq doğan və ölən şeylərin varlığı olduğu halda, vacib varlıq varlığını başqasından deyil, özündən alan varlıqdır. Beləliklə, cismlərin varlığı mümkün, Allahın varlığı vacibdir. Lakin, ruh, nəfs kimi varlıqlar mümkün varlıq olması ilə yanaşı, Allahın vacib varlıq olmasından vaciblik alırlar. Bunlara aləmin qanunları və ya küll deyilir.

**Tərbiyə və Əxlaq nəzəriyysəi**

Filosof əxlaq məsələləri ilə yaxından maraqlanmış, demək olar bütün əsərlərində əxlaq məsələlərinə yer ayırmışdır. O, bu mövzuda metafizik düşüncələrlə İslamın əsaslarını uzlaşdırmış və əxlaq nəzəriyyəsini bu prinsipdən çıxış edərək təhlil etmişdir: Allah hər cür yaxşılıq və gözəllik qaynağıdır [İbrahimova 2018: 106]. O, ilk cövhər və vacib varlıqdır, hər şeydə olduğu kimi "yaxşlıq" və "pislik" də ondandır, lakin Allah lütf sahibi olduğu üçün "pislik" insanın başına Ondan deyil əşyadan gəlir. Filosof pisliyi bu qismlərə ayırır:

1. Zəflik, savadsızlıq, yaradılışdakı nöqsan və əskiklik mənasına gələn pislik, hansı ki bu fiziki pislikdir.

2. Dərd, kədər kimi maddi və mənəvi mənada pislik. Bu psixoloji pislikdir.

3. Metafizik pislik. Filosof bunu isə günah kimi şərh edir.

Filosofa görə aləmdə daha çox yayılan və əsas olan yaxşılıqdır, pislik yaxşılıq ehtiyacının bir nəticəsidir, hisslərlə əldə edilən ləzzətlər xəyalidir, gerçək deyil, gerçək olan ləzzətlər əqli ləzzətlərdir. Ariflər ikinci ləzzətə etibar edərək səadətə çatarlar.

İbn Sina bir mütəfəkkir olaraq tərbiyə mövsuzu ilə də maraqlanmış, bu mövzuda "örnək olma" məsələsinə diqqət çəkmişdir. O tərbiyənin əsasını əqli tərbiyə, fiziki sağlamlıq, əxlaq tərbiyəsi, sənət (peşə) öyrətmək və estetik tərbiyədə görmüşdür. Filosof düşünür ki, insanın başqasına əxlaq tərbiyəsi verə bilməsi üçün, ilk öncə özünün əxlaqlı olması və özünü yetişdirməsi lazımdır. Buna görə şəxs ilk öncə öz ayıb və qüsurlarını görməlidir. Ruhu və bədəni sağlam olan insan, Allahın verdiyi ağlın köməyi ilə yaxşını pisdən, doğrunu yanlışdan ayırmalıdır. Başqalarının hərəkət və vərdişlərini örnək götürməklə gözəl əxlaq keyfiyyətlərinə yiyələnməlidir.

**Nəticə**

Nəticə olaraq bu qənaətə gəlirik ki, müasir dövr mütərəqqi elmi inkişafın bir çoxunu İbn Sinaya borcludur. İstər tibb, istər din, istərsə də psixologiya, fəlsəfə və digər elm sahələrində İbn Sinanın vahid sistemi diqqət çəkməkdədir. O bütün elmi izahları məntiqə söykənərək vermiş və elmi-fəlsəfi təhlillər aparmışdır. Bunun nəticəsidir ki, onun və əsərlərinin təsiri altında yazılan əsərlər bu gün də dünyanın bir çox tədris müəssisəsində istifadə edilməkdədir.

İbn Sinanın xüsusilə tibb sahəsindəki düşüncələri müasir tibbin formalaşmasına təkan vermişdir. O tibb sahəsində yalnız əczaçılıq, əməliyyat, profilaktika tərəflərinə toxunmamış psixoloji, daxili inam vasitəsi ilə də müalicə olunmağın mümkünlüyünü elmi-nəzəri əsaslarla izah edərək müasir dövr psixoloqlarının əsas metodlarından birini formalaşdırmışdır.

Eyni zamanda Filosof yalnız elmi-fəlsəfi yaradıcılıqla məşğul olmamış, dövlət idarəçiliyində də yaxından iştirak etmiş və vəzirliyə kimi yüksəlmişdir. Buna görə də deyə bilərik ki, İbn Sina həm dövlət idarəçiliyində həm də tibbi, elmi-fəlsəfi yaradıcılıqda hər dövrün əvəzsiz dahisidir.

### *Ədəbiyyat siyahısı*
### *(References)*

1. İbrahimov, S. 2018 yanvar-fevral. № 01 (54). *Baba Nemətullah Nakhchivani ve Felsefi gorusleri.* Dovlet ve Din İctimai Fikir Toplusu.
2. Kaya M. (2013). *TDV İslam Ansiklopedisi* . (XLIII jild), Ankara: Beden. seh 180
3. Paşayeva, Ə. 2015. №2 2015. *İbn Sinanin Aristotel mentiqine getirdiyi yeniliyi ve bunun İslam mutefekkirlerine tesiri.* Baki Universitetinin Kheberleri Sosial-siyasi elmlər seriyası
4. Taylan, N. (2006). *İslam Felsefesi.* İstambul: Ensar neshriyyatı. seh 203
5. Ünver, S. (1955*). İbni Sina hayati ve eserleri hakkinda çalishmalar.* İstanbul: Bürhaneddin Erenler Matbaası. seh 225

***Bahruz Gulmaliyev***

## *Scientific and philosophical aspects of Ibn Sina's work*

### *Abstract*

Although some of Ibn Sina's works are related to one subject, many of his works are encyclopedic. Because his works reflected philosophy, logic, medicine, psychology and other fields of science.

Ibn Sina's system of ideas embodies the classical nature of medieval philosophy. This system, which has risen from an empiricist-rationalist position to an irrational one, has also shifted from masculinity to orientalism.

Ibn Sina stated that logic is a tool of science, and that its purpose is to give signs that protect people from mistakes. According to the philosopher, the human mind is defective and needs the laws of logic. He believes that logic is also an art of thinking.

The philosopher was closely interested in moral issues, and in almost all of his works he devoted space to moral issues. He reconciled metaphysical thinking with the fundamentals of Islam on this subject and analyzed moral theory based on this principle. God is the first essence and essential being, and as in all things, "good" and "evil" come from Him, but because God has grace, "evil" comes to man from things, not from Him. The philosopher thinks that in order for a person to be able to educate others, he must first be moral. Therefore, a person must first see his own shame and shortcomings and distinguish between good and evil.

According to Ibn Sina, the nafs is located between the body and the mind. The philosopher expressed beings in important and possible terms. According to the philosopher, while a possible being is the existence of things that are born and die, an important being is a being that receives its existence from itself and not from someone else. Thus, the existence of bodies is possible, and the existence of God is important.

***Key words:*** philosophy, science, being, logic, morality, education, medicine

***Бахруз Гюльмалиев***

***Научно-философские аспекты творчества Ибн Сины***

***Резюме***

Хотя некоторые труды Ибн Сины (Авиценна) охватывают одну тему, многие труды ученого носят энциклопедический характер, так как в них нашли свое отражение различные сферы науки: философия, логика, медицина, психология и т.д.

Систематичность идей Ибн Сины содержит в себе классический характер средневековой философии. Эта система, поднявшаяся с позиций эмпиризма и рационализма до иррационализма, также направлена от восточного перипатетизма к ишракизму.

Ибн Сина отмечает, что логика является инструментальной наукой, а ее цель заключается в подаче знаков, защищающих человека от ошибок. Согласно суждениям философа, так как ум человека не безупречен, он нуждается в законах логики. Ученый считает, что логика является также искусством размышления.

Философ подробно интересовался вопросами нравственности, уделяя им место почти во всех своих трудах. Он сопоставил метафизические суждения с основами Ислама и анализировал теорию нравственности, исходя из этого принципа. Аллах (Бог) является необходимым Бытием, все «хорошее» и «плохое», как и все остальное, исходит от Него, однако так как Аллах милостив, «плохое», которое происходит с человеком, приходит не от Него, а от предметов. Философ считает, что для того, чтобы человек мог давать кому-то нравственное воспитание, в первую очередь нужно, чтобы он сам был нравственным. Поэтому человек первым делом должен видеть свои изъяны и недостатки, уметь отличать хорошее от плохого.

По Ибн Сине, нафс находится между телом и разумом. Философ выражает понятие «бытие» фразами «необходимое бытие» и «возможное бытие». Согласно суждениям ученого, в то время как возможное бытие относится к существованию рождающихся и умирающих предметов, необходимое Бытие получает свое существование не от кого-то, а от себя самого. Таким образом, бытие тел является возможным, а бытие Аллаха необходимым.

***Ключевые слова:*** *философия, наука, бытие, логика, нравственность, воспитание, медицина*

*Məqalə redaksiyaya daxil olmuşdur: 02.03.2021*
*Təkrar işlənməyə göndərilmişdir: 01.04.2021*
*Çapa qəbul edilmişdir: 03.06.2021*